

# Prezidentin səlahiyyətlərinin Heydər Əliyevə verilməsi müstəqilliyin xilası naminə atılan zəruri addım idi

**Düz 28 il əvvəl – 1993-cü il iyunun 24-də Milli Məclisinin qərarı ilə Azərbaycan Respublikası Prezidentinin səlahiyyəti Azərbaycan Respublikası Ali Sovetinin Sədri Heydər Əlirza oğlu Əliyevə həvalə olundu. O zaman ölkəmiz öz həyatının çox ciddi siyasi təbəddülatlar mərhələsini yaşayırdı. Yenicə dövlət müstəqilliyinə qovuşmuş Azərbaycan hər tərəfdən sıxışdırılaraq çətin sınaqlara çəkilir, ermənilər Qarabağı tam işğal etmək üçün hərbi təcavüzü gücləndirirdi. AXC-Müsavat cütlüyü isə özünün fərsiz rəhbərliyi ilə ölkəni parçalanmaq və tamamilə məhv olmaq təhlükəsi ilə üzbəüz qoymuşdu. Xalqın təkidi ilə siyasi hakimiyyətə qayıdan ulu öndər Heydər Əliyev Gəncə qiyamını yatırandan sonra, iyunun 15-də seçildiyi Ali sovetin sədri vəzifəsində gərgin iş cədvəli ilə çalışır, dövlət, xalq, Vətən naminə mühüm tədbirlər həyata keçirirdi.**

Prezident Əbülfəz Elçibəyin xəbərsiz-ətərsiz Bakını tərk etməsi dövlət hakimiyyətini, mühüm icra strukturlarını çətin bir problem qarşısında qoydu. Məlumat yayıldı ki, o, iyunun 17-dən 18-nə keçən gecə qəflətən yoxa çıxıb. Sonra məlum oldu ki, Prezident dövlət orqanlarının rəhbərlərinə də xəbər vermədən Bakı şəhərindən Naxçıvan Muxtar Respublikası Ordubad rayonunun Kələki kəndinə gedib. Deputatların bir çoxu Elçibəyə etimadsızlıq göstərilməsi haqqında məsələ qaldırsalar da, Heydər Əliyev tələsməməyi, təmkin göstərməyi, ona düşünmək üçün imkan verməyi məsləhət gördü. Azərbaycan Respublikasının Milli Məclisi 1993-cü il 21 iyun tarixli qərarı ilə Azərbaycan Respublikasının Prezidenti Əbülfəz Elçibəyə Bakı şəhərinə təcili olaraq qayıtması barədə müraciət etdi. Lakin Elçibəy bu müraciətə əhəmiyyət verməyərək, nəinki paytaxta qayıtmadı və heç bir təsirli tədbir də görmədi. Bununla da özü tərəfindən Azərbaycan Respublikasının Prezidenti vəzifələrinin icrasını qeyri-mümkün etdi.

Heydər Əliyev ilk addım olaraq, onun geri qayıtmasına, öz postunda fəaliyyət göstərməsinə nail olmaq istəyirdi. Onunla şəxsi telefon əlaqəsi yaratmışdı. Danışıq aparmaq, prezidentin geri qayıtmasını təşkil etmək üçün Kələkiyə xüsusi komissiya göndərmişdi. Dahi lider demokratik yolla hərəkət edir, ən xırda məsələləri belə Milli Məclisin geniş müzakirəsindən keçirir, tam aydınlıq yaratmasına çalışırdı. Hətta iyunun 24-də saat 3-ə nəzərdə tutulan iclası da iki saat yubatmışdı ki, Elçibəylə bir daha danışılsın və müəyyən bir fikrə gəlinsin. O isə konkret cavab əvəzinə, əvvəlcə ölkəni Kələkidən idarə edəcəyini bildirmiş, səlahiyyətlərinin yalnız bir hissəsini verə biləcəyini söyləmişdi. Lakin əksər deputatlar onun bu addımını Konstitusiyanın və qanunların kobud pozulması kimi dəyərləndirmiş, vəzifəsindən kənar olunmasını tələb etmişdilər.

Vəziyyətin ciddiliyi nəzərə alınaraq, Milli Məclisin qərarı ilə Azərbaycan Respublikası Konstitusiyasının 121-7-ci maddəsinə əsasən Əbülfəz Qədirqulu oğlu Əliyevin (Elçibəyin) Azərbaycan Respublikası Prezidenti vəzifələrini daha icra edə bilmədiyi təsdiq olundu və onun səlahiyyətinin Azərbaycan Respublikası Ali Sovetinin Sədri Heydər Əlirza oğlu Əliyevə verildi. Eyni zamanda, Prezident Əbülfəz Elçibəy də 1993-cü il 24 iyun tarixli Fərmanla öz səlahiyyətlərini Azərbaycan Respublikası Ali Sovetinin Sədrinə verdi. Bu, artıq bütün hadisələrin dövlətin ciddi nəzarəti altına götürülməsi, xalqın iradəsinə tabe edilməsi demək idi.

Xatırladaq ki, xalq hərəkatı dalğasında hakimiyyətə gələn, başlıca missiyası Azərbaycanın ərazi bütövlüyünü qorumaq və ölkəni inkişaf etdirmək olan, lakin sonrakı hadisələrdən də göründüyü kimi, çiynini gücü çatmayan yükün altına vermiş Elçibəyin mübarizədən yayınması onun üçün bir növ taleyin istehzası idi. Çünki məhz həmin gün 55 yaşı tamam olan Əbülfəz Əliyev xalqın etimadını doğrulda bilmədiyini etiraf etməli olub və gedib sığındığı Kələki kəndindən qayıtmayıb. Prezident səlahiyyətinin icrasına başlayan Heydər Əliyev isə gecə-gündüz bilmədən Azərbaycan dövlətçiliyini daha səylə qorumağa, ölkənin başının üstünü alan qara buludları dağıtmağa, müstəqilliyimizin dönməz olması üçün ciddi səylər göstərməyə başlayıb. "Xalq mənə ümid bəsləyir. Mən də bu ümidi doğrultmaq üçün həyatımın qalan hissəsini xalqa bağışlamışam və ona qurban verməyə hazıram", – deyərək, bütün varlığı ilə bu yöndə örnək çalışmalarını sonadək layiqincə davam etdirib. Siyasi müdrikliyi ilə dövlət müstəqilliyimizi ikinci dəfə əldən vetmək təhlükəsindən qoruyub və ölkəmizi böyük inkişaf yoluna çıxarıb.

Tarix heç nəyi unutmur. Hələ Elçibəyin "Milli Qəhrəman" elan etdiyi Surət Hüseynovun qoşunları hökumətə itaətsizlik göstərərək, Gəncə qiyamına başlayan ərəfədə – mayın 25-də Prezident Aparatında hüquq-mühafizə orqanları işçilərinin müşavirəsində Əbülfəz Elçibəy hakimiyyətin ölkədə yaranmış vəziyyətə nəzarət etməkdə gücsüzlüyünü etiraf etmişdi: "Xalq deyir: – kaş canımız bu Xalq Cəbhəsinin əlindən qurtaraydı – prokurorluqdan, məhkəmədən xahiş edirəm, buna cavab versinlər. Bu gün respublika niyə dağılır?" Buna acizlik faktından başqa nə ad vermək olar? Bundan tamamilə fərqli olaraq, hər zaman qəti, prinsipial addımlar atması ilə seçilmiş Heydər Əliyevin rəhbərlik etdiyi Naxçıvan Ali Məclisi isə Gəncə qiyamının ertəsi günü – iyunun 5-də hadisə ilə əlaqədar bəyanat vermişdi. Bəyanatda gəncəlilərin imperiya nökərlərinə layiqli cavab verəcəklərinə, müstəqilliyimizi və gənc Azərbaycan dövlətini qoruyub saxlayacaqlarına böyük inam ifadə olunmuşdu. Orada yazılırdı ki, Azərbaycan Respublikasının bir hissəsinin düşmən tapdağında olduğu, dünya dövlətlərinin ölkəmizə diqqətinin artdığı bir dövrdə cinayətkar ünsürlərin törətdiyi qardaş qırğınını təcavüzkar Ermənistanın dəyirmanına su tökmək kimi qiymətləndiririk...

Bu, hər şeyi öz adı ilə çağırmaq cəsarəti, siyasi qətiyyət, dövlətin və xalqın taleyinə vətənpərvərcəsinə can yandırmaq amalı idi. Xalq da yaxşı bilirdi ki, onu düşdüyü bəlalardan yalnız dünya şöhrətli ictimai-siyasi xadim Heydər Əliyev xilas edə bilər. Ona görə də ulu öndərin Naxçıvandan Bakıya dəvət edilməsi çox keçmədən əsl ümumxalq hərəkatına çevrilib və bir neçə gün sonra ümummilli lider Heydər Əliyev ölkənin paytaxtına qayıdıb. Dahi rəhbərin qayıdışı respublika əhalisində böyük ümidlər yaradıb. Tezliklə də həmin ümidlər özünü doğruldub, sarsılmaz inama çevrilib. Böyük düha torpaqlarımıza yiyələnmək üstündə ən kəskin geosiyasi ziddiyyətlərin mövcud olduğu bir şəraitdə dövlətçiliyimizi xilas edib, Azərbaycan varlığını parçalanıb yox olmaq təhlükəsindən qurtarıb.

Beləcə, ilk günlərdən başlayaraq ulu öndərin həyata keçirdiyi siyasət bütün dünyaya göstərib ki, Azərbaycan müstəqil dövlət kimi yaşamağa qadirdir, biz iqtisadiyyatımızı, siyasətimizi özümüz layiqincə idarə etməyi bacarırıq. O zamankı Azərbaycan kimi qeyri-sabit, hərc-mərcliyin, avantüranın baş alıb getdiyi qarışıq bir məmləkətdə çox qısa bir vaxtda sabitliyin yaradılması Heydər Əliyev şəxsiyyətinin, şücaətinin, böyüklüyünün bariz nümunəsidir.

Yaşlı və orta nəslin nümayəndələri unutmuş deyillər ki, 1993-cü ilin ikinci yarısından etibarən hamımız gündəlik olaraq Milli Məclisdən canlı yayımlara, reportajlara baxmağa tələsir, aşkarlıq prinsipi əsasında verilən proqramları böyük diqqətlə izləyirdik. Həmin verilişlərdə ulu öndərin çıxışları hər kəsin ürəyindən xəbər verirdi. Canlı yayımlarda onun iclası aparmaq tərzi, fikirlərini dəqiq əsaslandırması, çıxışların məğzini tutmaq bacarığı, qiymətli fikirləri ümumiləşdirmək qabiliyyəti heyranlıq doğururdu. Tutduqları vəzifələri "donduran" lovğa məmurların, nadan nazirlərin davranışları isə təəssüflə qarşılanırdı...

Milli Məclisin Prezident səlahiyyətlərini Heydər Əliyevə verməsinə baxmayaraq, o, Azərbaycan Respublikasının demokratik imicini saxlamaq naminə yenə də demokratik yolla hərəkət edir, dünya təcrübəsindən yararlanacaqdır, Əbülfəz Elçibəyin prezident vəzifəsində qalması haqqında referendum keçirilməsini müdafiə edirdi. Heydər Əliyev Milli Məclisin 29 iyun tarixli iclasında bu məsələ ilə əlaqədar qeyd edirdi ki, məclis üzvlərinin təklifləri qanunauyğundur, əsaslıdır və məntiqidir. Ancaq bəlkə demokratiyanın Azərbaycanda geniş surətdə bərqərar olduğunu bir daha nümayiş etdirək. Onun təklifi ilə Milli Məclis iyunun 29-dakı iclasında referendum keçirilməsi haqqında qərar qəbul etdi. Avqustun 29-da Prezident Əbülfəz Elçibəyə etimad haqqında referendum oldu. Referendumda iştirak edənlərin 97,5 faizi prezidentə etimadsızlıq göstərdilər.

Heydər Əliyevin həmin il oktyabrın 3-də keçirilən Prezident seçkilərinədək həm ali qanunvericilik orqanının sədri olduğu, həm də Prezident səlahiyyətlərini icra etdiyi dövr ölkədə, regional və beynəlxalq müstəvidə dövlətçiliyimizin böyük sınaqlardan uğurla çıxdığı dövr kimi səciyyələnir. İlk növbədə parlamentarizm ənənələri bərqərar edilərək yeni nəfəs, yeni qüvvə aldı. Eyni zamanda, ordu quruculuğu sahəsində mühüm qərarlar qəbul edildi. "Şəhid adının əbədiləşdirilməsi və şəhid ailəsinə edilən güzəştlər haqqında" Azərbaycan Respublikasının Qanunu qəbul olundu. Konstitusiyada və müxtəlif hüquqi sənədlərdə zəruri dəyişikliklər edildi. Heydər Əliyev həmin dövrdə əhalinin döyüş ruhunu qaldırmaq, müharibə dövrünə uyğun təbliğat aparmaq, qanunsuz silahlı dəstələri zərərsizləşdirmək üçün bütün lazımi tədbirləri görür, ölkədəki vəziyyət barədə fikirlərini tez-tez xalqla bölüşür, inam və etimadı daha da gücləndirirdi. Böyük tarixi şəxsiyyət qısa müddətdə parlamentin ruhunu kökündən dəyişdi, Milli Məclisə siyasi mədəniyyət gətirdi. Parlamentin spikeri və Prezident səlahiyyətlərinin icraçısı kimi intensiv olaraq çoxsaylı xarici diplomatları, jurnalistləri qəbul edən ulu öndər Azərbaycanın həntərəfli təbliğatını məharətlə aparır, ölkəmiz haqqında formalaşmış yanlış rəylərin dəyişməsinə nail olurdu. Bütün bunlar özlüyündə parlamentin üzvləri və dövlət məmurları üçün yeni bir örnək, əsl dövlət idarəçiliyi məktəbi idi.

Məhz həmin dövrdə – avqustun 7-də cənub bölgəsində "Talış-Muğan Respublikası" elan olunmuşdu. Bununla əlaqədar Heydər Əliyev avqustun 13-də parlamentdə həmin bölgədən olan deputatlar, ziyalılar, ağsaqqallarla görüşüb vəziyyəti ətraflı müzakirə etdi. Avqustun 17-də isə Milli Məclis "Azərbaycan Respublikasının Lənkəran, Astara, Masallı, Lerik, Yardımlı, Cəlilabad və Biləsuvar rayonlarında yaranmış vəziyyət haqqında" qərar qəbul edərək "Talış-Muğan Respublikası" avantürasına siyasi qiymət verdi. Tezliklə əhalinin istəyi ilə həmin bədnam iddiaya son qoyuldu. Bu, ulu öndərin məqsədyönlü və uzaqgörən siyasətinin parlaq təzahürü olmaqla bərabər, Gəncə qiyamı zamanı özünü itirmiş və qardaş qanının axıdılmasına səbəb olmuş AXC-Müsavat cütlüyünün "başbilən"ləri üçün ibrət dərsi idi.

Heydər Əliyev qanunun aliliyi, azad vətəndaş cəmiyyəti prinsiplərinin bərqərar olması zəruriliyini dönə-dönə vurğulayırdı: "Azərbaycan Respublikası demokratik yolla getməlidir, Azərbaycanda həqiqi demokratiya prinsipləri yaranmalıdır, inkişaf etməlidir, Azərbaycanda siyasi plüralizmə imkan yaradılmalıdır. Azərbaycan çoxpartiyalı bir cəmiyyət kimi yaranmalıdır, partiyaların fəaliyyətinə şərait yaradılmalıdır. Azərbaycan bazar iqtisadiyyatı yolu ilə, sərbəst iqtisadiyyat yolu ilə getməlidir. Azərbaycanda milli həmrəylik, insanlar, siyasi partiyalar, qurumlar arasında sülh və sağlam rəqabət əhval-ruhiyyəsi yaranmalıdır."

Bildiyimiz kimi, 1993-cü il oktyabrın 3-də keçirilən Prezident seçkilərində seçicilərin 98,8 faizi Heydər Əliyevə səs verərək, ölkənin taleyini məhz görkəmli dövlət xadiminə, dünya şöhrətli siyasətçiyə həvalə etdi. Bundan sonra isə ölkədə möhkəm ictimai-siyasi sabitlik yaradıldı, Qarabağ münaqişəsində atəşkəsə nail olundu ki, nizami ordu quruculuğu həyata keçirilsin. 1994-cü ilin sentyabrında "Əsrin müqaviləsi" imzalandı, 1995-ci ilin Mart çevriliş cəhdinin qarşısı qətiyyətlə alındı, noyabrın 12-də müstəqil Azərbaycanın ilk demokratik Konstitusiyası qəbul olundu. Həmin gün müstəqillik dövründə ilk dəfə parlamentə seçkilər keçirildi və 1-ci çağırış Milli Məclis tezliklə işə başladı.

Azərbaycan özünün dövlət müstəqilliyi dövründə çox tarixi günlər yaşayıb. Bu baxımdan 1993-cü il iyunun 24-də Prezident səlahiyyətlərinin Ali Sovetin Sədri Heydər Əliyevə verilməsi barədə Milli Məclisin məlum qərarı da dövlətçilik tariximizin mühüm səhifələrindən biridir. Daim Azərbaycan dövlətçiliyinin, müstəqilliyinin keşiyində iftixarla durduğunu və bu yolda hətta şəhid olmağa belə hazır olduğunu bildirən ümummilli liderin milli-vətənpərvərlik amalı, xalqa bağlılıq duyğuları hələ uzun illər boyu yüksək örnək kimi öyrəniləcək.

**Əli NƏCƏFXANLI,**
**"Xalq qəzeti"**